**UOT: 338.4, 332.02:332.05**

# İŞĞALDAN AZAD OLUNAN ƏRAZİLƏRİMİZDƏ KƏND TƏSƏRRÜFATI SAHƏSİNİN BƏRPASI İSTİQAMƏTLƏRİ VƏ İSTEHSAL GÖSTƏRİCİLƏRİNİN PROQNOZLAŞDIRILMASI

**Firdovsi Fikrət oğlu Fikrətzadə, i.ü.f.d.**
*Aqrar Tədqiqatlar Mərkəzinin direktoru,*
*İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun doktorantı*
*e-mail: firdovsi.fikratzade@atm.gov.az*

**Səadət İntiqam qızı Hacıyeva**
*Aqrar Tədqiqatlar Mərkəzinin Analitika departamentinin direktoru,*
*Aqrar Tədqiqatlar Mərkəzinin doktorantı*
*e-mail:* **seadet.haciyeva@atm.gov.az**

***Xülasə***

*İşğaldan azad olunmuş torpaqlarımızda kənd təsərrüfatının bərpası və inkişafı hazırda qarşımızda duran əsas vəzifələrdəndir. Bu məqalədə münaqişələrin / müharibələrin kənd təsərrüfatına vurduğu ziyanlar və postkonflikt zonalarda kənd təsərrüfatının bərpası ilə bağlı dünya təcrübəsinin icmalı verilmişdir. Bunun əsasında Azərbaycanın işğaldan azad olunmuş ərazilərində kənd təsərrüfatının bərpası istiqamətləri müəyyən olunmuş, habelə bu ərazilərdə kənd təsərrüfatının bərpası nəticəsində gözlənilən istehsal göstəriciləri proqnozlaşdırılmışdır.*

**Açar sözlər:** *işğaldan azad olunmuş ərazilər, kənd təsərrüfatının bərpası, torpaq islahatı, əkin sahəsi, heyvanların baş sayı, bitkiçilik məhsulları, heyvandarlıq məhsulları, perspektiv istehsal, proqnoz.*

**Giriş**

İşğaldan azad olunmuş ərazilərimizə “Böyük qayıdışın” təmin edilməsi üçün Azərbaycan dövləti tərəfindən kompleks fəaliyyət planlarının hazırlanması ilə bərabər artıq bu istiqamətdə olduqca əhəmiyyətli praktiki fəaliyyətlərə də başlanılıb.

Belə ki, işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə səlahiyyətli dövlət orqanlarının rəhbər şəxslərindən ibarət Əlaqələndirmə Qərargahı formalaşdırılmışdır [1].

Həmçinin işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə “Qarabağ Dirçəliş Fondu” publik hüquqi şəxs yaradılmışdır [2].

2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir [3]: “*Bizim planlarımız böyükdür. Müharibə cəmi iki aya yaxındır ki, başa çatıb. Amma görün, nə qədər böyük işlər görülüb. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik*”.

Bir sözlə, artıq işğaldan azad olunmuş ərazilərdə inzibati idarəetmə orqanlarının bərpası və nəqliyyat, enerji və kommunikasiya infrastrukturunun yaradılması istiqamətində zəruri işlər görülür. Bütün bu tədbirlər işğaldan azad olunmuş ərazilərdə məskunlaşma, bərpa və inkişaf fəaliyyətlərinin tam sürətlə icra olunmasına imkan verəcəkdir.

İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının bərpası və inkişafı ilə də bağlı dövlət başçısı tərəfindən hökumətə tapşırıqlar verilmişdir [3]: “*Azad edilmiş torpaqlarda kənd təsərrüfatının inkişafı sistemli xarakter almalıdır və hökumət, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi bəri başdan prioritetlər seçməlidir. İlk növbədə, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün hansı məhsullar əkilməlidir? Azad edilmiş torpaqların həm bitkiçilik, həm də heyvandarlıq sahəsində çox böyük potensialı var*”.

Bu məqalədə münaqişələrin / müharibələrin kənd təsərrüfatına vurduğu ziyanlar və postkonflikt zonalarda kənd təsərrüfatının bərpası ilə bağlı dünya təcrübəsinin araşdırılması əsasında Azərbaycanın işğaldan azad olunmuş ərazilərində kənd təsərrüfatının bərpası istiqamətləri müəyyən olunmuşdur. Həmçinin bu ərazilərdə kənd təsərrüfatının bərpası nəticəsində gözlənilən istehsal göstəriciləri proqnozlaşdırılmışdır.

**Postkonflikt zonalarda kənd təsərrüfatının bərpası və inkişafı ilə bağlı dünya təcrübəsi**

Aparılan araşdırmalar çərçivəsində sosial-iqtisadi sarsıntılar, texnogen fəlakətlər və silahlı qarşıdurmalar nəticəsində kənd təsərrüfatı istehsalı və ərzaq ticarətinin pozulması, investisiyaların azaldılması, torpaq və infrastrukturun pisləşməsinin yerli və regional ərzaq təhlükəsizliyinə təsirləri müxtəlif aspektlərdən qiymətləndirilmişdir.

Teodosijevic “Armed Conflicts and Food Security” məqaləsində gəldiyi nəticəyə əsasən münaqişə dövründə kənd infrastrukturunun dağılması, mal-qaranın tələf olması, meşələrin qırılması, minalardan geniş istifadə edilməsi, eləcə də əhalinin yerdəyişməsi ərzaq təhlükəsizliyi sahəsində

uzunmüddətli problemlərin yaranmasına gətirib çıxarır. Bu problemlərin aradan qaldırılması üçün post-konflikt dövründə dağılmış ərazilərdə kənd təsərrüfatı fəaliyyətinin bərpası, o cümlədən döyüşlərdə iştirak etmiş əsgərlərin müvəqqəti tərxis olunması, ərazilərin minalardan təmizlənməsi və kənd infrastrukturunun, xüsusilə də yolların və suvarma sistemlərinin yenidən qurulması tələb olunur [7].

Silahlı münaqişələrin ərzaq təhlükəsizliyinə təsiri ilə bağlı aparılmış araşdırmaya görə, münaqişələr adətən kənd təsərrüfatı məhsullarının istehsalının həddən artıq azalması ilə nəticələnir, bu isə öz növbəsində aclığa və çoxlu sayda insanın yeni ərzaq mənbələri axtarışında miqrasiya etməsinə gətirib çıxarır. Bunu, son dövrlər ərzində Yaxın Şərqdə baş verən güclü silahlı münaqişələrdən sonra İraq, Suriya, Livan və s. kimi ölkələrdən qonşu ölkələrə, habelə Qərbi və Şərqi Avropa ölkələrinə miqrantların axını timsalında da müşahidə etmək olar [7]. Həmçinin münaqişələr kənd təsərrüfatına güclü zərər vurur, ev təsərrüfatlarının gəlirlərini azaldır, torpaqların deqradasiyasına, bitkilərin genetik ehtiyatlarının məhv olmasına, ölüm və ya miqrasiya halları isə kənd təsərrüfatı mütəxəssislərinin itirilməsinə səbəb olur [5].

Digər bir araşdırmaya görə isə Suriya və İraq hadisələrindən sonra insanların münaqişə zonasını kütləvi şəkildə tərk etmələrinə baxmayaraq, bu ərazilərdə kənd təsərrüfatı bitkilərinin əkin sahələri əvvəllər becərilməmiş ərazilər hesabına daha da genişlənmişdir. Bunun müqabilində isə intensiv üsulla becərilən əkin sahələrinin xüsusi çəkisi azalmışdır [8].

İkinci Dünya Müharibəsindən sonra 1947-ci ildə ABŞ Konqresinin Avropa iqtisadiyyatının bərpası məqsədilə qəbul etdiyi “Marşal planında” müharibədən sonrakı dövrdə çox ağır vəziyyətdə olan Qərbi Almaniyanın iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatının bərpası da nəzərdə tutulmuşdu [10]. Bu ərazilərdə kənd təsərrüfatı istehsalının bərpası və yaxşılaşdırılması ilə bağlı məsələlər aşağıdakı istiqamətləri əhatə edirdi: i) Taxılın, yem bitkilərinin və otlaqların məhsuldarlığının artırılması; ıı) Süd istehsalının artırılması, südün və digər tez xarab olan məhsulların keyfiyyətinin yaxşılaşdırılması; ııı) Heyvanların yemlənməsinin səmərəliliyinin artırılması; ıv) Məhsuldarlığın artırılması üçün təsərrüfatlarda mexanikləşmənin aparılması.

Bu tədbirlər nəticəsində müharibədən sonrakı dövrdə Qərbi Almaniyada sənaye sahəsindəki qədər olmasa da kənd təsərrüfatı məhsullarının istehsalı sürətlə artdı. Qeyd edək ki, bu artım əkin sahələrinin genişləndirilməsi hesabına yox, intensiv istehsal üsullarının tətbiqi hesabına əldə edilmişdi. Belə ki, 1953-cü ildə Qərbi Almaniyanın ümumi torpaq sahəsinin yalnız üçdə biri əkin sahələrindən, dörddə biri isə otlaq və çəmənliklərdən ibarət idi [10].

II Dünya Müharibəsindən sonrakı ilk bir neçə il ərzində və sıx kollektivləşmədən əvvəl, eləcə də 20 il davam edən müharibədən sonra Vyetnamda tətbiq edilən aqrar siyasətin nəticələri də postkonflikt zonalarda kənd təsərrüfatı sahəsinin inkişafı təcrübəsi kimi araşdırılmışdır. Bu araşdırmaya əsasən, münaqişə nəticəsində kəndlər şiddətli dağıntılara məruz qalmış, kənd təsərrüfatına yararlı 560.000 hektar əkin sahəsi becərilməmiş qalmış və 1.5 milyon baş kənd təsərrüfatı heyvanı tələf olmuşdur. Konflikt dövründə kənd əhalisinin böyük bir qismi kəndlərdən şəhərlərə və qəsəbələrə köçürülmüşdür ki, bunun nəticəsində də şəhərlərdə işsizliyin artması ilə yanaşı kənd yerlərində işçi qüvvəsi azalmışdır. Kəndlərdəki fermerlərin sayı da azalmışdır. Müharibədən sonra Vyetnam Kommunist Partiyasının siyasətinin əsas istiqamətləri istehsalın bərpasına, torpaq islahatının aparılmasına və müharibədən sonrakı digər problemlərin həllinə yönəlmişdi [9].

Beynəlxalq Aqrar Tədqiqatlar üzrə Məsləhət Qrupu (Consultative Group on International Agricultural Research) isə son 30 ildə Afrika, Asiya və Latın Amerikasında münaqişələrə və təbii

fəlakətlərə məruz qalmış bir çox ölkədə kənd təsərrüfatı fəaliyyətinin bərpası ilə bağlı görülən işləri araşdırmış və bu ölkələrin post-konflikt dövründə kənd təsərrüfatı sahəsinin bərpası ilə bağlı həyata keçirdikləri tədbirləri aşağıdakı kimi qruplaşdırmışdır [6]: ı) Kənd təsərrüfatı üzrə elmi-tədqiqat və təcrübi mərkəzlərinin yaradılması; ıı) Toxum istehsalı və tədarükü sistemlərinin bərpası; ııı) Aqrobiomüxtəlifliyin qorunması və bərpası; ıv) İnsan potensialının və institusional potensialın bərpası; v) Gələcəkdəki münaqişələrə və fəlakətlərə qarşı dayanıqlılığın artırılması; vı) Yardım Təşkilatlarının daha effektiv fəaliyyət göstərməsinin təmin edilməsi.

Ümumiyyətlə, münaqişələrin / müharibələrin kənd təsərrüfatına vurduğu ziyanlar və postkonflikt zonalarda kənd təsərrüfatının bərpası ilə bağlı mövcud təcrübələr əsasında aşağıdakı istiqamətləri müəyyənləşdirmək olar:

**Şəkil 1. Münaqişələrin / müharibələrin kənd təsərrüfatına vurduğu ziyanlar və postkonflikt zonalarda kənd təsərrüfatının bərpası istiqamətləri**




***Qeyd:*** *Beynəlxalq Kənd Təsərrüfatı Tədqiqatları Mərkəzinin (ICARDA), Beynəlxalq Aqrar Tədqiqat üzrə Məsləhət Qrupunun (CGIAR) tədqiqatları və hesabatları əsasında hazırlanmışdır*

Qeyd edilən bu istiqamətlər Azərbaycanın da işğaldan azad olunan ərazilərində kənd təsərrüfatının bərpası və inkişafı məsələləri ilə bağlı metodoloji baza rolunu oynaya bilər.

**İşğaldan azad olunan ərazilərdə kənd təsərrüfatı sahəsinin bərpası məsələləri**

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində kənd təsərrüfatının bərpası və inkişafı istiqamətlərinin müəyyən olunması məsələləri, mövcud dünya təcrübəsi ilə yanaşı, bir sıra spesifik məqamların da nəzərə alınmasını tələb edir.

Əvvəla, Ermənistan Respublikası tərəfindən ərazilərimizin işğala məruz qalması ilə nəticələnən təcavüzkar müharibə beynəlxalq hüququn norma və prinsiplərinə sığmayan, demək olar ki, terror aktı xarakteri daşıyırdı. Belə ki, işğal olunmuş ərazilərdə yaşayan bütün əhali bu ərazilərdən son nəfərinədək qovulmuşdur. Həm də işğal olunmuş ərazilərdəki bütün mülki infrastruktur, o cümlədən də kənd təsərrüfatı infrastrukturu (fermalar, anbarlar, emal müəssisələri, irriqasiya sistemləri və s.) döyüşlər nəticəsində deyil, məqsədyönlü şəkildə tamamilə dağıdılmışdır. İşğaldan sonrakı dövrlərdə isə bu ərazilərdə kənd təsərrüfatı torpaqlarından istismar xarakterli istifadə olunmuşdur (Ermənistanın və digər ölkələrin işğal olunmuş ərazilərdə qanunsuz olaraq məskunlaşdırılan erməni əsilli vətəndaşları tərəfindən, habelə buradakı separatçı-kriminal qruplar tərəfindən əkinlərin aparılması və kənd təsərrüfatı heyvanlarının yemlənməsi məqsədləri üçün istifadə olunması formasında).

Digər tərəfdən isə, 1996-cı ildə qəbul edilmiş qərarla Azərbaycanda əkin təyinatlı kənd təsərrüfatı torpaqların əvəzsiz olaraq kənd yerlərində yaşayan əhalinin şəxsi mülkiyyətinə verilməsi ilə nəticələnən və uğurla həyata keçirilən torpaq islahatları, məlum səbəbdən işğal olunmuş əraziləri əhatə etməmişdir. Yəni azad olunmuş ərazilərdə torpaq islahatının aparılması və aqrar sahədə tam olaraq özəl sektorun fəaliyyətinə əsaslanan təsərrüfatçılıq fəaliyyətinin qurulması vəzifəsi də qarşıda durur.

Beləliklə, postkonflikt zonalarda kənd təsərrüfatının bərpası ilə bağlı dünya təcrübəsini və hər hansı bir regionda kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı ümumi ehtiyacları nəzərə almaqla, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində kənd təsərrüfatı sahəsinin bərpası məsələlərini aşağıdakı istiqamətlər üzrə qruplaşdırmaq olar:

**Şəkil 2. Azad olunmuş ərazilərdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri**

- **Torpaq və su resurslarının səmərəli istifadəsi üzrə planlamanın aparılması, bərpa tədbirlərinin görülməsi və torpaq islahatının aparılması**
- **Heyvandarlıq fermalarının qurulması**
- **Aqrotexniki xidmətlər, toxum, gübrə və pestisidlərlə təchizat bazasının yaradılması**
- **Məhsulların tədarükü və ticarəti üzrə logistika infrastrukturunun yaradılması**
- **Aqro-emal müəssisələrinin yaradılması**
- **Kənd təsərrüfatı mütəxəssislərinin hazırlanması və informasiya-məsləhət xidmətinin təşkili**
- **Spesifik dövlət dəstəyi mexanizminin yaradılması**

Qeyd edilən 7 istiqamətin hər biri işğaldan azad olunan ərazilərin tədricən bərpası və inkişafı ilə bağlı kifayət qədər geniş əhatəli məsələlərlə xarakterizə olunur.

***Torpaq və su resurslarının səmərəli istifadəsi üzrə planlamanın aparılması, bərpa tədbirlərinin görülməsi və torpaq islahatının aparılması***

Torpaq balansı məlumatlarına əsasən işğaldan azad olunan ərazilərdə kənd təsərrüfatının bərpasından sonra 200 min hektardan çox torpaq sahəsinin əkin üçün istifadə ediləcəyi proqnozlaşdırılır ki, bunun da təqribən 9 min ha həyətyanı sahələrdir.

Lakin bu ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin inventarlaşdırılması, xəritələndirilməsi və elektron məlumat bazası mövcud deyil, torpaq sahələrinin uqodiyalar üzrə dövlət, bələdiyyə və xüsusi mülkiyyət bölgüsü yoxdur. Buna görə də işğaldan azad olunmuş ərazilərdə daşınmaz əmlakın vahid kadastr uçotu işləri həyata keçirilməli (yaşayış məntəqələri daxil olmaqla), torpaqların dəqiq uçotu (kəmiyyət və keyfiyyət, kateqoriya və uqodiyalar üzrə) aparılmalı və torpaq kadastrı yaradılmalı, regionun rəqəmsal topoqrafik xəritəsi hazırlanmalıdır. Bunun hesabına potensial əkin sahələrinin, örüş-otlaqların və biçənəklərin ölçüləri barədə dəqiq informasiya müəyyən olunacaq ki, bu da həm regionda aqrar sahə üzrə istehsalın effektiv şəkildə planlaşdırılması və dəqiq proqnoz göstəricilərinin əldə olunması, həm də torpaq islahatının aparılması üçün zəruri informasiya bazası kimi çıxış edəcək.

Torpaqların kəmiyyət ölçüləri ilə bərabər aqrokimyəvi tədqiqatlar əsasında keyfiyyət göstəriciləri barədə də məlumatların əldə olunması azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişaf etdirilməsi baxımından prioritet sahələrin müəyyən olunması baxımından əhəmiyyətli məsələdir.

Həmçinin bu ərazilərdə suvarma sistemlərinin yaradılması, ümumiyyətlə suvarma imkanları ilə bağlı potensialın da dəqiq qiymətləndirilməsi zəruridir. Ona görə ki, bu ərazilərdə su ehtiyatlarının kifayət qədər olmasına baxmayaraq, 1988-ci ildə "DQMV iqtisadiyyatı: problemlər və perspektivlər" mövzusunda Nazirlər Soveti yanında Xalq Təsərrüfatını İdarəetmə İnstitutunda keçirilən görüşdə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun əməkdaşı bunları qeyd edib: "*... kənd təsərrüfatı başlıca olaraq dəmyə əkinçiliyə əsaslanır, kənd təsərrüfatı üçün yararlı sahələrin ümumi miqdarının 1/10 hissəsindən bir qədər çoxu suvarılan sahədir*" [4, səh. 62].

Başqa sözlə, hazırki ictimai müzakirələrdə işğaldan azad olunmuş ərazilərdə su ehtiyatlarının digər regionlarla müqayisədə çox olması qeyd olunsa da, tarixi faktlar bu ərazilərdə daha çox dəmyə əkinçiliyinin üstünlük təşkil etdiyini göstərir.

Torpaq və su ehtiyatları ilə bağlı qiymətləndirmə aparıldıqdan və uçot sistemi qurulduqdan sonra əsas vəzifə, şübhəsiz ki, işğaldan azad olunmuş ərazilərdə torpaq islahatının aparılması ilə bağlıdır. Bu baxımdan, azad olunmuş ərazilərdə torpaq islahatının aparılması baxımından bir sıra müsbət məqamlar mövcuddur.

Belə ki, 1996-cı ildə MDB məkanında ilk dəfə Azərbaycanda aparılan və uğurla nəticələnən torpaq islahatı təcrübəsi mövcuddur. Bu təcrübə azad olunmuş ərazilərdə torpaq islahatının aparılması üçün də konseptual baza rolu oynamış olacaq. 1996-cı ildə islahat aparılan zaman torpaq sahələrinin dəqiq inventarlaşdırılması aparılmadığına görə bəzi hallarda torpaqlarla bağlı dəqiq uçot məlumatlarının olması problemi var idisə, azad olunmuş torpaqlarda müasir informasiya texnologiyaları əsasında elektron uçot sistemi yaratmaq imkanı var. Həmçinin ölkənin digər regionlarında 1996-cı ildə aparılan torpaq islahatı sosial ədalət prinsipinə uyğun olub, lakin islahatdan

sonra torpaqların kiçik bloklara parçalanması iqtisadi səmərəliliyi aşağı salıb. İndi keçmiş təcrübə əsasında azad olunmuş ərazilərdə torpaq islahatı aparılarkən torpaqların özəl mülkiyyətə verilməsi zamanı minimal səmərəli ölçünün gözlənilməsini təmin edən mexanizmlər tətbiq oluna bilər.

Qeyd edilənlər nəzərə alınmaqla, azad olunmuş ərazilərdə torpaq islahatının aparılması üçün həm sosial ədaləti, həm də iqtisadi səmərəliliyi təmin edən müxtəlif variantlara baxıla bilər. Bu baxımdan aşağıdakı islahat modellərini təklif edirik:

| **Azad olunmuş ərazilərdə torpaq islahatının aparılması üçün mümkün variantlar** | |
|---|---|
| **Variant 1. Mövcud torpaq islahatı təcrübəsinin tətbiqi** | |
| ***Təsviri*** | Torpağın keyfiyyəti nəzərə alınmaqla əkin yerləri pay torpaqları kimi pay almaq hüquqi olanlar (kənddə yaşayan bütün ev təsərrüfatları) arasında bölünür. |
| ***Üstünlüyü*** | Bu sahədə təcrübə olduğundan islahatı asanlıqla həyata keçirmək mümkündür. |
| ***Çatışmazlığı*** | Əkin sahələri kiçik hissələrə parçalanır. |
| **Variant 2. İcma əsaslı ailə-kəndli təsərrüfatlarının yaradılması** | |
| ***Təsviri*** | Torpağın keyfiyyəti nəzərə alınmaqla kənd yerlərində yaşayan əhali üzrə adambaşına torpaq payları müəyyən edilir. Sonra torpaq sahələri torpağın minimal səmərəli ölçüsü nəzərə alınmaqla iri bloklar üzrə olmaqla icmalar kimi yaradılan ailə-kəndli təsərrüfatları qrupuna verilir. |
| ***Üstünlüyü*** | Torpaqlar parçalanmır, iri təsərrüfat subyektləri formalaşır. |
| ***Çatışmazlığı*** | Ailə-kəndli təsərrüfatlarının müştərək fəaliyyət ənənəsi ilə bağlı lazımi təcrübə yoxdur, fəaliyyətin uğurlu olacağı riski mövcuddur. |
| **Variant 3. Kooperativlərin yaradılması** | |
| ***Təsviri*** | Torpağın keyfiyyəti nəzərə alınmaqla kənd yerlərində yaşayan əhali üzrə adambaşına torpaq payları müəyyən edilir. Sonra həmin paylar əsasında kooperativ(lər) yaradılır. |
| ***Üstünlüyü*** | Torpaqlar parçalanmır, iri təsərrüfat subyektləri formalaşır. |
| ***Çatışmazlığı*** | Bu sahədə uğurlu təcrübə demək olar ki, yoxdur. Həmçinin kooperativlərin idarə edilməsi mürəkkəb prosedurlar tələb edir. |
| **Variant 4. Bələdiyyələrin iştirakı ilə təsərrüfatların yaradılması** | |
| ***Təsviri*** | Əkin yerləri bələdiyyələrin mülkiyyətinə verilir və torpağın keyfiyyəti nəzərə alınmaqla hər bir bələdiyyənin ərazisində yaşayan ev təsərrüfatlarına icarəyə verilir. Torpaqların icarəyə verilməsi zamanı icmaların yaradılması şərti də müəyyən edilə bilər. Həmin torpaq sahələri beş ildən sonra bələdiyyənin ərazisində daimi yaşayan həmin təsərrüfatların (icmaların) mülkiyyətinə verilir. |
| ***Üstünlüyü*** | Bu prosesi inzibati olaraq asanlıqla həyata keçirmək mümkündür. Əhalinin məskunlaşması prosesi sabitləşdikcə torpaq xüsusi mülkiyyətə verilir, həmçinin torpaqlar parçalanmır. |
| ***Çatışmazlığı*** | Torpaqlardan istifadə hüququnun verilməsi ilə bağlı şəffaflıq riski mövcuddur, torpaqdan istifadə etmək istəyənlərin hamısı ədalətli şəkildə torpaqla təmin olunmaya bilər. |

Nəzərə almaq olar ki, Variant 2 və Variant 3-də icmanın və ya kooperativin üzvü öz payını sata bilər və bu halda mövcud üzvlərin həmin payı almaqda üstün hüququ olur. Üzvlərdən kimsə almadığı halda payı almış kənar şəxs kooperativin və ya ailə-kəndli təsərrüfatının (icmanın) üzvü olur. Yəni heç bir halda torpaq sahəsinin bölünməsinə yol verilmir.

***Heyvandarlıq fermalarının qurulması***

Torpaqlar bərpa edilib təsərrüfatların istifadəsinə verildikdən sonra növbəti mərhələdə heyvandarlıq fermalarının qurulması və təsərrüfatlarının heyvanlarla təmin olunması istiqamətində tədbirlər görülməlidir. Heyvandarlığın intensiv amillər hesabına inkişafı imkanları nəzərə alınmaqla fermaların qurulması və təsərrüfatların məhsuldar heyvanlarla təmin olunması məsələsi aktuallıq kəsb edir. Heyvandarlıq fermalarının qurulması tədbirləri həm də iqtisadi səmərəliyinin artırılması baxımdan fermaların optimal ölçüsü nəzərə alınmaqla təşkil edilməsini əhatə edir.

***Aqrotexniki xidmətlər, toxum, gübrə və pestisidlərlə təchizat bazasının yaradılması***

Əkinçilik istiqamətli təsərrüfatların fəaliyyət göstərməsi üçün onların istehsal vasitələri ilə təmin edilməsi vacibdir. İşğaldan azad edilmiş bu ərazilərdə məskunlaşan təsərrüfatların əkin-biçin işləri ilə məşğul olması üçün onların toxum, gübrə və pestisidlərə çıxışının asanlaşdırılması və bu ərazilərdə aqrotexniki xidmətlərin təşkili ilə bağlı bərpa tədbirləri ilkin mərhələdə daha çox dövlətə məxsus “Aqroservis” ASC tərəfindən həyata keçirilə bilər. Tədricən bu istiqamətdə özəl təsərrüfatların da stimullaşdırılması mühüm şərtdir.

***Kənd təsərrüfatı mütəxəssislərinin hazırlanması və informasiya-məsləhət xidmətinin təşkili***

Azad olunan ərazilərdə məskunlaşan fermerlər üçün məsləhət-informasiya xidmətlərinin təşkili bu bölgədə kənd təsərrüfatının bərpası və inkişafı baxımından vacib faktorlardandır. Belə ki, işğal olunmuş rayonların əhalisinin kənd yerlərində qeydiyyatda olanlarının əksəriyyəti uzun müddətdir kənd təsərrüfatı fəaliyyətindən uzaq düşüblər, yaxud da işğaldan sonra şəhər və qəsəbələrdə doğulan və ya yetişən yeni nəsil ümumiyyətlə kənd təsərrüfatı fəaliyyətində iştirak təcrübəsinə malik deyillər. Həmçinin müasir dövrdə artıq təsərrüfatların texnologiyası yenilənib, yeni və daha məhsuldar təsərrüfatçılıq üsulları formalaşıb. Buna görə də həmin ərazilərdə məsləhət-informasiya xidmətlərinin təşkil olunması və modul peşə təlimi sisteminin yaradılması çox zəruridir.

***Məhsulların tədarükü və ticarəti üzrə logistika infrastrukturunun yaradılması***

Təsərrüfatların fəaliyyətə başlaması üçün yuxarıda qeyd edilən zəruri tədbirlər həyata keçirildikdən sonra onların davamlı fəaliyyəti üçün qısa zamanda tədarük zəncirləri qurulmalı və logistika infrastrukturu formalaşdırılmalıdır. Logistika infrastrukturu istehsal edilmiş məhsulların daşınması və saxlanmasını, həmçinin nəqliyyat vasitələrinə çıxışın təmin edilməsi və yolların bərpa edilməsi məsələlərini də əhatə etməlidir. Həmçinin regionda baramaçılıq və tütünçülüyün bərpası imkanları nəzərə alınmaqla barama və tütün qəbulu məntəqələrinin yaradılması da tədarük infrastrukturu baxımından önəmlidir.

***Aqro-emal müəssisələrinin yaradılması***

Tədarük və logistika infrastrukturu ilə bərabər bölgədə istehsal strukturuna müvafiq aqro-emal müəssisələrinin yaradılması da mühüm tədbirlərdəndir. Azad olunmuş ərazilərdə südçülüyün, üzümçülüyün və meyvəçiliyin inkişafı perspektivləri nəzərə alınmaqla, məhz bu sahələr üzrə emal müəssisələrinin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Həmçinin taxılçılığın inkişafına uyğun olaraq un dəyirmanlarının, heyvandarlığın inkişafı əsasında isə sənaye üsulu ilə yem istehsalı və ilkin dəri xammalı emalı müəssisələrinin qurulması da nəzərə alına bilər.

***Spesifik dövlət dəstəyi mexanizminin yaradılması***

Hazırda hökumət tərəfindən aqrar sahə üzrə həyata keçirilən dövlət dəstəyi siyasətinin, o cümlədən də aqrobiznes sahələri üzrə investisiya təşviqi siyasətinin işğaldan azad olunmuş ərazilər üzrə spesifik korrektələrə ehtiyac olacaq. Belə ki, hazırda tətbiq edilən dəstək və təşviq siyasəti ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ticarəti sahələrinin inkişafı məqsədi ilə həyata keçirilir. Bunun müqabilində, işğaldan azad edilmiş ərazilərdə bu sahələrin ilk növbədə bərpasına ehtiyac var.

**İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı əkinləri: 1980-ci illər üzrə statistika və perspektiv dövr üçün proqnoz**

Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən, 1980-ci illərdə bölgədə 139.8 min hektar əkilmiş sahə mövcud olub. Əkinlərin strukturunda taxıl sahələri və üzümlüklər üstünlük təşkil edib: əkilmiş sahənin 55%-i taxıl məhsullarının, 35%-i üzümlüklərin payına düşüb ***(Cədvəl 1)***.

**Cədvəl 1. 1980-ci illər üzrə əkin sahələrinin strukturu, ha**

| | **Taxıl** | **Pambıq** | **Tütün** | **Kartof, tərəvəz, bostan** | **Meyvə və giləmeyvə** | **Üzüm** | **Cəmi sahə** |
|---|---|---|---|---|---|---|---|
| **Qarabağ** | 37,776 | - | 198 | 1317 | 1,701 | 11,211 | **52,203** |
| Ağdam | 7,660 | 7,565 | - | 259 | 287 | 13,042 | **28,813** |
| Cəbrayıl | 8,995 | - | - | 144 | 48 | 6,570 | **15,757** |
| Füzuli | 13,214 | 600 | - | 201 | 76 | 14,148 | **28,239** |
| Kəlbəcər | - | - | 660 | 6 | - | - | **666** |
| Qubadlı | 3,401 | - | 589 | 88 | 91 | 997 | **5,166** |
| Laçın | 3,852 | - | 83 | 63 | 175 | - | **4,173** |
| Zəngilan | 1,929 | - | 359 | 61 | 57 | 2,391 | **4,797** |
| **Cəmi sahə** | 76,827 | 8,165 | 1,889 | 2139 | 2,435 | 48,359 | **139,814** |
| ***Ölkə üzrə cəmi sahəyə nisbəti, %*** | *14.3* | *2.7* | *11.6* | 10.9 | *1.8* | *24.7* | ***7.7*** |

***Mənbə:*** *Dövlət Statistika Komitəsi*

1980-ci illərin statistikası və Ağdam və Füzuli rayonlarının işğala məruz qalmayan faktiki sahələri əsas götürülməklə perspektiv dövr üçün həmin ərazilərdə 232.8 min hektar sahədə əkinlərin olacağı proqnozlaşdırılır ***(Cədvəl 2)***.

**Cədvəl 2. Perspektivdə əkin sahələrinin proqnozlaşdırılan strukturu, ha**

| | Taxıl | Pambıq | Tütün | Kartof, tərəvəz, bostan | Yem bitkiləri | Meyvə və giləmeyvə | Üzüm | Cəmi sahə |
|---|---|---|---|---|---|---|---|---|
| **Qarabağ** | 48,500 | - | - | 2,100 | 400 | 1,700 | 2,300 | **55,000** |
| Ağdam* | 28,862 | 4,601 | - | 9,816 | 16,909 | 2,565 | 500 | **63,253** |
| Cəbrayıl | 10,400 | - | - | 300 | 7,300 | 800 | 1,200 | **20,000** |
| Füzuli* | 50,465 | 1,300 | - | 1,769 | 12,579 | 2,679 | 761 | **69,553** |
| Kəlbəcər | 900 | - | 200 | 200 | - | 500 | - | **1,800** |
| Qubadlı | 6,300 | - | 400 | 400 | 1,000 | 2,500 | 400 | **11,000** |
| Laçın | 2,300 | - | - | 200 | 1,000 | 500 | - | **4,000** |
| Zəngilan | 1,900 | - | 300 | 300 | 2,500 | 2,200 | 1,000 | **8,200** |
| **Cəmi sahə** | 149,627 | 5,901 | 900 | 15,085 | 41,688 | 13,443 | 6,161 | **232,805** |
| ***Ölkə üzrə cəmi sahəyə nisbəti, %*** | *12.8* | *5.8* | *22.5* | *9.6* | *10.6* | *6.0* | *27.9* | ***11.1*** |

***Mənbə:*** *Aqrar Tədqiqatlar Mərkəzi*

**Ağdam və Füzuli rayonlarının işğala məruz qalmayan ərazilərindəki faktiki sahələr nəzərə alınmaqla*

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə əkin məqsədi ilə istifadə ediləcək torpaq sahələrinin ölçüsü ilə bağlı proqnozlaşdırma 1980-ci illərin rəsmi statistikası nəzərə alınaraq, ötən dövr ərzində ölkədə kənd təsərrüfatının inkişaf trendləri əsasında ekstrapolyasiya edilməklə aparılıb.

İşğaldan azad edilən rayonlarda ənənəvi sahələrlə yanaşı perspektiv dövrdə meyvə və tərəvəzçiliyin, həmçinin heyvandarlığın yem təminatı baxımından yem bitkiləri sahəsinin inkişafı da nəzərdə tutulur. Torpaq-iqlim xüsusiyyətləri nəzərə alınmaqla çoxillik əkmələrin strukturunda nar, xurma, alça, gavalı, albalı və gilas, alma, armud bağlarının, baramaçılığın inkişaf perspektivi baxımından çəkil əkmələrinin və ənənəvi sahələrin bərpası məqsədilə üzümlüklərin salınmasına üstünlük veriləcəyi gözlənilir ***(Cədvəl 3)***.

**Cədvəl 3. İşğaldan azad edilən torpaqlarda çoxillik əkmələrin növlər üzrə proqnozlaşdırılan strukturu, ha**

| | Albalı, gilas | Fındıq | Xurma | Nar | Alma | Armud | Alça, gavalı | Çəkil | Cəmi meyvə | Üzüm |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Qarabağ** | - | - | 500 | 500 | - | - | - | 700 | **1,700.0** | **2,300.0** |
| Ağdam | 600 | 200 | 200 | 200 | - | - | 400 | 200 | **1,800.0** | **500.0** |
| Cəbrayıl | 200 | - | 100 | 200 | - | - | 300 | - | **800.0** | **1,200.0** |
| Füzuli | 500 | 100 | - | 500 | - | 100 | 800 | - | **2,000.0** | **600.0** |
| Kəlbəcər | - | - | - | - | 200 | - | - | 300 | **500.0** | **-** |
| Qubadlı | 200 | | 200 | 1000 | 200 | 100 | 300 | 500 | **2,500.0** | **400.0** |
| Laçın | - | - | 200 | 200 | - | - | 100 | - | **500.0** | **-** |
| Zəngilan | 100 | - | 500 | 500 | 100 | 200 | 300 | 500 | **2,200.0** | **1,000.0** |
| **Cəmi** | **1600** | **300** | **1700** | **3100** | **500** | **400** | **2200** | **2200** | **12,000.0** | **6,000.0** |

***Mənbə:*** *Aqrar Tədqiqatlar Mərkəzi*

1980-ci illərdə regionda bitkiçilik məhsullarından əsasən taxıl məhsulları və üzüm istehsalı üstünlük təşkil edib. Həmin dövrdə Qarabağ və ətraf rayonlar ölkə üzrə taxıl istehsalının 13.9%-nə, üzüm istehsalının isə 25.5%-nə malik idi ***(Cədvəl 4)***.

**Cədvəl 4. 1980-ci illərdə bitkiçilik məhsullarının istehsalı, min ton**

| | Taxıl | Pambıq | Tütün | Kartof | Tərəvəz | Bostan | Meyvə və giləmeyvə | Üzüm |
|---|---|---|---|---|---|---|---|---|
| **Qarabağ** | **100.1** | **-** | **0.3** | **2.77** | **6.6** | **0.3** | **1.1** | **71.8** |
| Ağdam | 30.1 | 19.3 | - | 0.01 | 1.4 | 0.9 | 0.48 | 86.1 |
| Cəbrayıl | 20.1 | - | - | 0.01 | 0.5 | 0.3 | 0.03 | 42.0 |
| Füzuli | 31.9 | 1.5 | - | - | 0.6 | 0.5 | 0.05 | 100.8 |
| Kəlbəcər | - | - | 0.9 | - | - | 0.01 | - | - |
| Qubadlı | 6.7 | - | 2.1 | 0.06 | 0.01 | 0.1 | 0.01 | 2.9 |
| Laçın | 3.0 | - | 0.1 | 0.05 | 0.4 | 0.02 | 0.02 | 0.0 |
| Zəngilan | 4.6 | - | 1.3 | 0.06 | 0.1 | 0.05 | 0.04 | 16.3 |
| **Cəmi istehsal** | **196.5** | **20.8** | **4.7** | **2.96** | **9.61** | **2.18** | **1.73** | **319.9** |
| ***Ölkə üzrə cəmi istehsala nisbəti, %*** | ***13.9*** | ***3.4*** | ***8.1*** | ***1.8*** | ***1.1*** | ***3.4*** | ***0.4*** | ***25.5*** |

***Mənbə:*** *Dövlət Statistika Komitəsi*

Hal-hazırda ölkədə taxılçılıq və üzümçülüyün faktiki inkişaf dinamikası nəzərə alınmaqla, taxıl və üzüm istehsalında bu bölgənin payının təqribən eyni səviyyədə olması gözlənilir. Bundan başqa ənənəvi olaraq Qubadlı, Zəngilan və Kəlbəcər rayonlarında tütünçülüyün, Ağdam və Füzuli rayonlarında pambıqçılığın, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Ağdərə bölgələrində üzümçülük sahələrinin bərpa edilməsi nəzərdə tutulur.

Ənənəvi sahələrinin bərpası ilə yanaşı bölgədə kartof, tərəvəz, bostan və yem bitkiləri əkinlərinin genişləndirilməsi imkanları böyükdür. Yüksək əlavə dəyər yaratması, emal sənayesi üçün xammal təminatı və ixrac imkanları perspektivi baxımından həmin ərazilərdə meyvəçiliyin inkişafına da xüsusi diqqət yetiriləcəyi gözlənilir ***(Cədvəl 5)***.

**Cədvəl 5. Perspektivdə bitkiçilik məhsullarının istehsalına dair proqnoz, min ton**

| | Taxıl | Pambıq | Tütün | Kartof | Tərəvəz | Bostan | Yem bitkiləri | Meyvə və giləmeyvə | Üzüm |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Qarabağ** | **155.7** | **-** | **-** | **20.3** | **12.3** | **4.2** | **17.5** | **12.1** | **24.1** |
| Ağdam* | 101.9 | 13.2 | - | 11.9 | 183.2 | 6.1 | 172.1 | 17.4 | 5.6 |
| Cəbrayıl | 33.4 | - | - | 0.3 | 3.5 | 1.7 | 68.4 | 5.7 | 12.6 |
| Füzuli* | 158.9 | 3.1 | - | 4.4 | 12.8 | 8.4 | 105.6 | 15.6 | 7.2 |
| Kəlbəcər | 2.9 | - | 0.4 | 1.7 | 1.8 | - | 24.9 | 3.6 | - |
| Qubadlı | 20.2 | - | 0.8 | 3.0 | 2.6 | 1.5 | 11.4 | 17.8 | 4.2 |
| Laçın | 7.4 | - | - | 1.7 | 1.4 | 0.4 | 24.8 | 3.6 | - |
| Zəngilan | 6.1 | - | 0.6 | 1.7 | 2.6 | 1.0 | 24.1 | 15.6 | 10.5 |
| **Cəmi istehsal** | **486.5** | **16.3** | **1.7** | **45.1** | **220.3** | **23.3** | **448.8** | **91.2** | **64.2** |
| ***Ölkə üzrə cəmi istehsala nisbəti, %*** | ***12.6*** | ***5.4*** | ***22.3*** | ***4.3*** | ***12.1*** | ***5.0*** | ***8.8*** | ***7.7*** | ***24.3*** |

***Mənbə:*** *Aqrar Tədqiqatlar Mərkəzi*

**Ağdam və Füzuli rayonlarının işğala məruz qalmayan ərazilərindəki faktiki istehsal nəzərə alınmaqla*

Bitkiçilik sahəsinin yuxarıda qeyd edilən ənənəvi və perspektiv istiqamətlərinin bərpası ilə yanaşı regionda heyvandarlıq sahəsinin inkişafına daha çox üstünlük verilməsi təbii-iqlim və relyef xüsusiyyətləri baxımından daha əlverişli hesab edilir. Bu, həmin ərazilərdə otlaq və yaylaqların üstünlük təşkil etməsi və tarixən təsərrüfatçılıq ənənələrinin əsasən bu istiqamətdə olması ilə bağlıdır.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən həmin bölgədə 1980-ci illərdə 321 min baş iribuynuzlu heyvan və 1.1 milyon baş xırdabuynuzlu heyvan mövcud olub. Perspektiv dövrdə isə bu sayın müvafiq olaraq iribuynuzlu heyvanlar üzrə 430 min başa və xırdabuynuzlu heyvanlar üzrə 1.6 milyon başa çatdırılması imkanları var.

Heyvanların say strukturunun ölkə üzrə cəmi saya nisbətinə baxdıqda isə hazırda köçkünlərin malik olduğu heyvanların təsərrüfatlarla birlikdə işğaldan azad edilmiş rayonlara qayıtması nəzərə alınmaqla, təxminən iribuynuzlu heyvan sayında 14.7%, xırdabuynuzlu heyvan sayında 17.5% paya malik olması proqnozlaşdırılır. 1980-ci illərdə bu nisbət müvafiq olaraq iribuynuzlu heyvan sayında 16.2% və xırdabuynuzlu heyvan sayında 19.3% olub ***(Cədvəl 6)***.

**Cədvəl 6. Heyvanların baş sayı, min baş**

| | **1980-ci illər** | | | **Perspektiv dövr** | | |
|---|---|---|---|---|---|---|
| | **İribuynuzlu heyvanlar - cəmi** | *ondan inək və camışlar* | **Xırdabuynuzlu heyvanlar - cəmi** | **İribuynuzlu heyvanlar - cəmi** | *ondan inək və camışlar* | **Xırdabuynuzlu heyvanlar - cəmi** |
| **Qarabağ** | **95.6** | ***30.7*** | **264.3** | **127.9** | **41.0** | **376.6** |
| Ağdam | 44.4 | *16.4* | 191.8 | 59.4 | 22.0 | 273.2 |
| Cəbrayıl | 26.4 | *8.9* | 114.2 | 35.3 | 11.8 | 162.7 |
| Füzuli | 37.8 | *13.4* | 149.0 | 50.5 | 18.0 | 212.3 |
| Kəlbəcər | 31.9 | *11.0* | 97.4 | 42.6 | 14.6 | 155.3 |
| Qubadlı | 22.8 | *8.3* | 30.6 | 30.5 | 11.1 | 43.6 |
| Laçın | 43.0 | *14.8* | 224.8 | 57.5 | 19.8 | 320.3 |
| Zəngilan | 19.1 | *6.8* | 34.6 | 25.6 | 9.1 | 49.2 |
| **Cəmi heyvan sayı** | **321.0** | ***110.3*** | **1,106.7** | **429.3** | **147.4** | **1,593.2** |
| ***Ölkə üzrə cəmi heyvan sayına nisbəti, %*** | ***16.2*** | ***14.8*** | ***19.3*** | ***14.7*** | ***10.9*** | ***17.5*** |

***Mənbə:*** *Dövlət Statistika Komitəsi, Aqrar Tədqiqatlar Mərkəzi*

Heyvandarlıq sahəsinin inkişafı ölkənin ət və süd məhsulları ilə təminatı baxımından xüsusi önəm kəsb edir. Belə ki, həmin bölgədə təqribən 45 min ton ət və 240 min ton süd istehsalının olacağı proqnozlaşdırılır ki, bu da idxalın əvəzedilməsi və ərzaq təhlükəsizliyinin gücləndirilməsi baxımından regionun əhəmiyyətinin böyük olmasını bir daha göstərir ***(Cədvəl 7)***.

**Cədvəl 7. Əsas heyvandarlıq məhsullarının istehsalı, min ton**

| | 1980-ci illər | | | Perspektiv dövr | | |
|---|---|---|---|---|---|---|
| | Ət | Süd | Yumurta (mln. ədəd) | Ət | Süd | Yumurta (mln. ədəd) |
| **Qarabağ** | **10.9** | **53.9** | **31.7** | **17.9** | **66.1** | **51.2** |
| Ağdam | 3.8 | 24.4 | 19.2 | 6.3 | 42.5 | 31.0 |
| Cəbrayıl | 2.3 | 14.0 | 11.4 | 3.7 | 21.0 | 18.4 |
| Füzuli | 2.8 | 20.0 | 11.8 | 4.6 | 31.2 | 19.0 |
| Kəlbəcər | 2.0 | 16.3 | 8.1 | 3.3 | 20.9 | 13.1 |
| Qubadlı | 1.3 | 12.1 | 4.4 | 2.2 | 18.3 | 7.1 |
| Laçın | 3.3 | 13.9 | 4.1 | 5.4 | 23.9 | 6.7 |
| Zəngilan | 1.1 | 9.2 | 3.6 | 1.9 | 14.3 | 5.8 |
| **Cəmi istehsal** | **27.5** | **163.8** | **94.3** | **45.3** | **238.2** | **152.3** |
| ***Ölkə üzrə cəmi istehsala nisbəti, %*** | ***14.9*** | ***15.4*** | ***8.8*** | ***12.2*** | ***10.5*** | ***7.9*** |

***Mənbə:*** *Dövlət Statistika Komitəsi, Aqrar Tədqiqatlar Mərkəzi*

Ətlik və südlük istiqamətli heyvandarlıqla yanaşı, bölgədə tarixən mövcud olan baramaçılıq və arıçılıq ənənələrinin, həmçinin atçılığın bərpası da diqqət mərkəzindədir.

**Nəticə**

İşğaldan azad edilmiş rayonlarda kənd təsərrüfatının inkişaf perspektivləri baxımından aparılmış təhlil və qiymətləndirmələrə əsasən, bu torpaqlarda kənd təsərrüfatının bərpası istiqamətləri müəyyən edilmiş, regionun kənd təsərrüfatı sahəsi üzrə potensial istehsal həcmi proqnozlaşdırılmışdır. Belə ki, bölgədə Ağdam və Füzulinin işğala məruz qalmayan sahələri də nəzərə alınmaqla azad olunmuş ərazilərdə təqribən 232.8 min hektar sahədə birillik və çoxillik əkinlərin aparılacağı, həmçinin 430 min baş iribuynuzlu, 1.6 milyon baş xırdabuynuzlu heyvanlardan ibarət fermaların qurulacağı gözlənilir. Regionun tarixən heyvandarlıq sahəsi üzrə mövcud olan potensialı və təbii-relyef xüsusiyyətləri nəzərə alınmaqla gələcək dövrdə də heyvandarlıq ağırlıqlı kənd təsərrüfatı istehsalı üstünlük təşkil edəcək. Regionda heyvandarlığın yem təminatı baxımından mövcud olan otlaq və biçənəklərin mövcudluğu ilə yanaşı, taxıl və yem bitkiləri əkinlərinin də genişləndirilməsi hesabına heyvandarlığın inkişaf etdirilməsi üçün böyük potensial mövcuddur. Ət və süd məhsulları istehsalının proqnozlaşdırılan həcmi xüsusilə idxal əvəzetməsi baxımından böyük önəm kəsb edir.

Həmçinin regionda tarixən mövcud olan üzümçülük, tütünçülük, baramaçılıq və arıçılıq sahələrinin bərpası və genişləndirilməsi həyata keçiriləcək. Bundan əlavə regionda yeni trend olaraq intensiv meyvəçilik sahəsinin inkişafı da geniş vüsət alacaq.

Aparılmış qiymətləndirmələrə görə, regionda kənd təsərrüfatı istehsalının bərpası hesabına ölkə üzrə ümumi kənd təsərrüfatı məhsulları istehsalı həcminin 8%-dən çox artacağı gözlənilir.

Təbii ki, nəzərdə tutulan bərpa tədbirlərinin həyata keçirilməsi və istehsalın təşkili üçün spesifik dəstək mexanizmlərinin həyata keçirilməsinə də ehtiyac var. Belə ki, hazırda ölkədə həyata keçirilən aqrar siyasət bu sahənin inkişafı məqsədlərinə xidmət edirsə, azad olunmuş ərazilərdə həm də kənd təsərrüfatı sahəsinin bərpası ilə bağlı müvafiq mexanizmlərin yaradılması ehtiyacları nəzərə alınmalıdır.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı.
2. "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 04 yanvar tarixli Fərmanı.
3. Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib. https://azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_sedrliyi_ile_2020_ci_ilin_yekunlarina_hesr_olunmus_videoformatda_musavire_kechirilib_YENILANIB_VIDEO-1682565
4. Səmədzadə Z., "Dağlıq Qarabağ: naməlum həqiqətlər", Bakı, "Vətən" nəşriyyatı, 1995.
5. Zurayk, R., et al. (2018), "Agriculture, conflict and the agrarian question in the 21st century", Book: Crisis and Conflict in Agriculture. https://egyptssp.ifpri.info/2018/12/19/agriculture-conflict-and-the-agrarian-question-in-the-21st-century/
6. Varma, S. and Winslow, M. (2005), "Healing wounds: How the international centers of the CGIAR help rebuild agriculture in countries affected by conflicts and natural disasters", Consultative Group on International Agricultural Research (CGIAR).
7. Teodosijevic, S. B., (2003), "Armed Conflicts and Food Security", ESA Working Paper No. 03-11. http://www.fao.org/3/a-ae044t.pdf
8. Eklund, et al, (2017), "How conflict affects land use: agricultural activity in areas seized by the Islamic State", Environmental Research Letter. https://iopscience.iop.org/article/10.1088/1748-9326/aa673a/pdf
9. Dang, T. (n.d.). Postwar restoration and preparations for collectivisation. In *Vietnam's Post-1975 Agrarian Reforms* (pp. 45-79). ANU Press., https://www.jstor.org/stable/j.ctv1rmjkr.12
10. Hubert G. Schmidt, (1955), "Postwar Developments in West German Agriculture, 1945-1953", Agricultural History Society. https://www.jstor.org/stable/3740047

*Ph.D.*, F.F. Fikratzade

Director of the Agricultural Economics Research Center
*Doctoral student* at the Institute for Scientific Research on Economic Reforms

S.I. Hajiyeva, Chief of department, Agricultural Economics Research Center
*PhD student* of the Agricultural Economics Research Center

## Directions for the recovery and forecasting of production indicators of agriculture in liberated territories

*Summary*

*The recovery and development of agriculture in liberated territories is one of the main duties facing us now. Damage caused to agriculture by wars/conflicts and an overview of the world experience of the recovery of agriculture in post-conflict zones were given in this article. In this way, the directions for the recovery of agriculture in liberated territories of Azerbaijan were determined, as well as the forthcoming production indicators as a result of the recovery of agriculture in these territories were forecasted.*

***Keywords:*** *liberated territories, recovery of agriculture, land reform, arable area, number of animals, crop products, live-stock products, perspective production, forecast.*

*Д.ф.э.н.,* Ф.Ф. Фикретзаде

Директор Центра Аграрных Исследований
*Докторант* Научно-исследовательского института экономических реформ

С.И. Гаджиева, директор департамента, Центр Аграрных Исследований
*Докторант* Центра аграрных исследований

## Направления восстановлений и прогнозирование производственных показателей сельского хозяйства на освобожденных от оккупации территориях

*Резюме*

*Восстановление и развитие сельского хозяйства на освобожденных от оккупации землях – это основные задачи, стоящие перед нами в настоящее время. В данной статье представлен обзор ущерба, нанесенный сельскому хозяйству конфликтами / войнами и приведён мировой опыт по восстановлению сельского хозяйства в постконфликтных зонах. На этой основе были определены направления по восстановлению сельского хозяйства на освобожденных территориях Азербайджана, а также в результате восстановления в этих территориях сельского хозяйства были спрогнозированы ожидаемые показатели производства.*

***Ключевые слова:*** *освобожденные от оккупации территории, восстановление сельского хозяйства, земельная реформа, посевная площадь, поголовье животных, продукция растениеводства, продукты животноводства, перспективное производство, прогноз.*